Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının "___"" ________" 2023-cü il tarixli ____________ nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Əlilliyi olan şəxslərin minik avtomobili ilə təmin edilməsi xidmətinin**

**PASPORTU**

**Xidmətin adı:**

- Əlilliyi olan şəxslərin minik avtomobili ilə təmin edilməsi

**Xidmətin məzmunu**

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə və Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin minik avtomobilləri ilə təmin edilməsi

**Xidmətin aid olduğu təsnifat:**

- Sosial xidmətlər

**Xidməti həyata keçirən dövlət qurumunun adı:**

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (Nazirlik) tabeliyində Sosial Xidmətlər Agentliyi (Sosial Xidmətlər Agentliyi)
- Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi)

**Xidmətin həyata keçirilmə formaları:**

- Xidmət yerinə şəxs və ya onun qanuni nümayəndəsi gəlməklə

**Xidmətin həyata keçirilməsi və nəticəsi barədə məlumatlandırma forması:**

- Çağrı mərkəzi vasitəsilə
- Birbaşa (yerində)
- Poçt vasitəsilə
- Elektron qaydada

**Xidmətin həyata keçirilməsinin nəticəsi:**

- Şəxs minik avtomobili ilə təmin edilir və ya təmin edilməsindən imtina edilir.

**Xidmət istifadəçisi barədə məlumat:**

- Azərbaycan Respublikasının vətəndaşları

- Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər

**Xidmətin həyata keçirilməsi müddəti, xidmət haqqı, xidmət ödənişli olduqda ödənilmə üsulları:**

- Müddət: Növbəlilik qaydasında
- Xidmət haqqı: Ödənişsiz

**Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti:**

- İş günlərində iş saatları ərzində

**Xidmətin göstərilmə yeri:**

- Sosial Xidmətlər Agentliyinin Aparatının inzibati binası
- DOST mərkəzlərinin və filiallarının inzibati binası

**Xidmətin həyata keçirilməsinə imtina verilməsinin hüquqi əsasları:**

- Sənədlərin natamamlığı
- Hüquqi əsasın olmaması

**Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması:**

- Şəxsiyyəti təsdiq edən sənədin surəti (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə Azərbaycan Respublikasının ərazisində daimi yaşayış hüququ verən icazə vəsiqəsinin surəti)
- Şəxsin əlilliyini müəyyən edən tibbi-sosial ekspertiza müayinəsinin nəticəsi barədə çıxarış (TSEK-nin qərarı)
- Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin (Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi) TSEK-i tərəfindən əlilliyi olan şəxs üçün tərtib edilmiş Fərdi Reabilitasiya Proqramında reabilitasiya vasitəsi olaraq avtomobil ehtiyacına tibbi göstəriş
- Müraciət nümayəndə vasitəsilə edildikdə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənəd

Xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədləri elektron qaydada əldə etmək mümkün olmadıqda kağız üzərində təqdim edilir.

**Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar:**

a) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası" qüvvəyə mindikdən (24.12.2020) əvvəl əlillik təyin edilmiş və müvafiq aktlarla əhatə olunan imtiyazlı şəxslər TSEK tərəfindən onun üçün tərtib edilmiş Fərdi Reabilitasiya Proqramında reabilitasiya vasitəsi olaraq avtomobil ehtiyacına tibbi göstəriş verilməsi üçün Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə müraciət edirlər.
b) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası" qüvvəyə mindikdən (24.12.2020) sonra əlilliyi

müəyyən edilmiş və müvafiq aktlarla əhatə olunan imtiyazlı şəxslərə əlillik təyin edilərkən diaqnoza uyğun olaraq TSEK tərəfindən onun üçün tərtib edilmiş Fərdi Reabilitasiya Proqramında reabilitasiya vasitəsi olaraq avtomobil ehtiyacına tibbi göstəriş birbaşa təyin edilir.

- Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən reabilitasiya vasitəsi olaraq avtomobil ehtiyacına tibbi göstəriş təyin edilmiş şəxsə əlillik Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası" qüvvəyə mindikdən (24.12.2020) :
  a) əvvəl müəyyən edilmiş olduğu halda, şəxs TSEK tərəfindən avtomobil ehtiyacına verilmiş tibbi göstərişlə Sosial Xidmətlər Agentliyinə və ya DOST mərkəzlərinə -ə müraciət edir və o, müraciət etdiyi tarixdən pulsuz minik avtomobili növbəsinə alınır.
  b) sonra müəyyən edilmiş olduğu halda onun adı Fərdi Reabilitasiya Proqramında avtomobil ehtiyacına tibbi göstəriş verilmiş şəxslərin siyahısına daxil edilərək Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən Sosial Xidmətlər Agentliyinə göndərilir və Fərdi Reabilitasiya Proqramının tərtib edilmə ardıcıllığına görə pulsuz minik avtomobili növbəsinə alınır.
- Nazirlik tərəfindən minik avtomobilləri alındıqda Sosial Xidmətlər Agentliyi tərəfindən növbəlilik siyahısına uyğun olaraq əlilliyi olan şəxslər minik avtomobili ilə təmin edilirlər.
-

**Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar:**

- "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 71-72-ci maddələrinə əsasən xidmət istifadəçiləri xidmətin göstərilməsindən edilən imtinadan 30 gün müddətində yuxarı səlahiyyətli orqana inzibati qaydada şikayət verə bilər. İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə daxil olduğu gündən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır və mahiyyəti üzrə qərar qəbul edilir. Müəyyən edilmiş müddət ərzində qərar qəbul edilmədikdə və ya qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər.

**Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları:**

- "Elektron hökumət" portalı
- "e-sosial" internet portalı
- Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi

**Xidmətin elektronlaşma səviyyəsi:**

- Qismən elektronlaşdırılıb

**Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:**

- Avtomatlaşdırılmayıb